**“2024/2025-ci tədris ilində icma əsaslı məktəbəqədər təhsil xidmətlərinin təşkili” qrant müsabiqəsi**

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda məktəbəqədər təhsilə cəlb edilmiş uşaqların sayının 50 faizə çatdırılması nəzərdə tutulmuşdur. Strategiyanın hədəfinə nail olmaq üçün digər tədbirlərlə yanaşı məktəbəqədər təhsilin təşkilinin qrant vasitəsilə maliyyələşdirilməsi həyata keçirilir. Bu məqsədlə Elm və Təhsil Nazirliyi tərəfindən uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi üçün “2024/2025-ci tədris ilində icma əsaslı məktəbəqədər təhsil xidmətlərinin təşkili” adlı növbəti qrant müsabiqəsi elan olunur.

**Qrant müsabiqəsinin büdcəsi 4 300 000 (dörd milyon üç yüz min) AZN təşkil edir.** Qrant müsabiqəsinin büdcəsi dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına artırıla bilər.

**Qrant müsabiqəsində iştirak tələbləri:**
Qrant müsabiqəsində təşkilati-hüquqi formasından asılı olmayaraq məktəbəqədər təhsil müəssisələri və ya vergi ödəyicisi kimi uçota alınmış pedaqoji işçilər iştirak edə bilər.

**Qrant müsabiqəsində iştirak sənədləri:**

1. **İştirakçı pedaqoji işçi olduqda:**
    - 1.1. Peşəkarlığını və təcrübəsini əks etdirən məlumatlar daxil olmaqla İştirakçı tərəfindən hazırlanmış və imzalanmış maraq ifadəsi məktubunun əslinin elektron surəti (PDF);
    - 1.2. Forma-1 əsasında hazırlanmış və iştirakçı tərəfindən imzalanmış layihə təklifinin əslinin elektron surəti (PDF);
    - 1.3. İştirakçının VÖEN-i və ona bağlı bank rekvizitlərinin əslinin elektron surəti (PDF);
    - 1.4. İştirakçının şəxsiyyət vəsiqəsinin əslinin elektron surəti (PDF);
    - 1.5. İştirakçının əmək kitabçasının (bütün səhifələr daxil olmaqla) əslinin elektron surəti (PDF).
2. **İştirakçı məktəbəqədər təhsil müəssisəsi olduqda:**
    - 2.1. İştirakçının rəsmi blankında hazırlanmış, qanuni nümayəndəsi tərəfindən imzalanmış və möhürlənmiş maraq ifadəsi məktubunun əslinin elektron surəti (PDF);

2.2. Forma-1 əsasında hazırlanmış, iştirakçının qanuni nümayəndəsi tərəfindən imzalanmış və möhürlənmiş layihə təklifinin əslinin elektron surəti (PDF);

2.3. İştirakçının dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin, dövlət reyestrindən çıxarışın və nizamnaməsinin əslinin elektron surəti (PDF);

2.4. İştirakçının Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmamasına dair Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən verilmiş arayışın əslinin elektron surəti (PDF);

2.5. İştirakçının VÖEN-i və ona bağlı bank rekvizitlərinin əslinin elektron surəti (PDF);

2.6. İştirakçının qanuni nümayəndəsinin şəxsiyyət vəsiqəsinin əslinin elektron surəti (PDF);

2.7. İştirakçı özəl məktəbəqədər təhsil müəssisəsi olduqda "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məktəbəqədər təhsil fəaliyyətinin həyata keçirilməsi lisenziyasının əslinin elektron surəti (PDF).

**Qrant müsabiqəsi aşağıdakı mərhələləri əhatə edir:**

1. Müraciət mərhələsi;
2. Qiymətləndirmə mərhələsi;
3. Qrantların ayrılması mərhələsi.

**Müraciət mərhələsi:**

Bu mərhələdə Qrant müsabiqəsinin iştirakçılarına və iştirak sənədlərinə verilən tələblər yoxlanılır. Bütün sənədləri tam və düzgün təqdim edən İştirakçılar "Qiymətləndirmə mərhələsi"nə keçir, əks halda Qrant müsabiqəsində iştirakı dayandırılır.

**Qiymətləndirmə mərhələsi:**

Bu mərhələdə layihə təklifləri aşağıdakı meyarlar əasında qiymətləndirilir:

- **Problemin qoyuluşu – 15 bal**

*Problemin etibarlı mənbələrlə əsaslandırılması, onun benefisiarlar üçün aktuallığı və həlli yolunun reallığı*

- **Gözlənilən nəticələr və görüləcək işlər – 15 bal**

*Gözlənilən nəticələrin ölçüləbilənliyi, görüləcək işlərin ətraflı təsviri və aydınlığı, onların problemin həllinə və gözlənilən nəticələrə yönəlməsi, təhsilə və benefisiarlara töhfəsi, zamanlama, ardıcıllıq və icra mexanizminin yetərliliyi*

- **İnfrastruktur və icra potensialı – 35 bal**

*Layihənin icra olunacağı məkanın maddi-texniki təchizatının və sanitariya-gigiyena vəziyyətinin müvafiq norma və normativlərə uyğunluğu, tərəfdaşlıq və kadr potensialının yetərliliyi*

- **Maliyyə səmərəliliyi – 25 bal**

*Layihənin xərclər smetasının texniki qüsursuzluğu, layihə çərçivəsində görüləcək işlərə və bazar qiymətlərinə uyğunluğu*

- **Monitorinq, qiymətləndirmə və hesabatlılıq – 10 bal**

*Monitorinq, qiymətləndirmə və hesabatlılıq metodologiyasının, onun əsas nəticə və icra indikatorlarının qənaətbəxşliyi*

“Qiymətləndirmə mərhələsi”ndə keçid balı 50 baldır. Qiymətləndirmə nəticəsində 50 və daha yüksək bal toplamış layihələr növbəti mərhələyə keçir, əks halda Qrant müsabiqəsində iştirakı dayandırılır.

**Qrantların ayrılması mərhələsi:**

Bu mərhələdə ən yüksək bal toplayan və qrant müsabiqəsinin büdcəsinə sığan layihələrə qrant ayrılır.

**Müsabiqəyə müraciət üçün son tarix:** 22.10.2024

**Sənədlərin qəbulu üçün elektron poçt:** alternativxidmet@edu.gov.az

**Ünvan:** Bakı şəhəri, Xətai prospekti 49